Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

№ 11 (2434) 20 mart 2025-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Dünyada şirin şeylər çoxdur və o şirin şeyləri yada salanda istər-istəməz insanın ürəyinə, qəlbinə bir işıq, bir nur gəlir. Vətən şirindir, ana şirindir, baba şirindir və nəvələr lap şirindir. Amma dünyada lap şirin bir şey də var ki, o olmayanda insanlar özlərini kor, kar, lal kimi hiss edir. O şirin sözün adı isə Söz azadlığıdır. Və söz azadlığı bal kimi şirindir. Elə ki onun dadını bir dəfə hiss etdin, ömrün boyu yaddan çıxarmayacaqsan. Hava, su, çörək sənə nə qədər lazımdırsa, bax, söz azadlığı da bir o qədər insana vacibdir.

SÖZ AZADLIĞI BALDAN DA ŞİRİNDİR

Azərbaycanda zaman-zaman söz və mətbuat azadlığına böyük önəm verilib. Biz bunu yalnız müstəqillik dövründə görmüşük, hiss etmişik və duymuşuq. Düzdür, Sovet dönəmində də mətbuat, televiziya və qəzetlər vardı. Amma orda tamamilə başqa bir şərait, başqa bir vəziyyət hökm sürürdü. Bütün Kütləvi İnformasiya Vasitələri senzuranın nəzarəti altındaydı. Sovet rejiminin əleyhinə istər mərkəzi mətbuatda, istərsə də rayon qəzetlərində açıq tənqid olsaydı həmin mətbuat orqanlarının rəhbərlərini çarmıxa çəkərdilər. Bu da olmasa ən azından onlar vəzifədən azad edilər və Sov.İKP sıralarından xaric olunardılar. Ona görə də həmin rejimin vaxtında redaktor işləyən jurnalistlər hər qəzet materialının üstündə yarpaq kimi əsir, birdən "dövlətin əleyhinə yazılar olar" deyin adi xəbərdən tutmuş böyük yazılara qədər hamısını bir-bir oxuyardı.

Amma indi gəlin görək dünyanın hər yerində söz, mətbuat, fikir və düşüncə azadlığı varmı? Təbii ki, bu suala birmənalı cavab vermək mümkün deyil. Dünyada ən çox söz və mətbuat azadlığı, demokratik ənənələr və düşüncə azadlığı ilə öyünən Avropa ölkələri və bir də ABŞ-dır. Təbii ki, həmin ölkələrdə söz azadlığı da olub, demokratik dəyərlərə də önəm verilib və ən nəhayət, insanlar insan kimi yaşamağı öyrəşiblər. Bir dəfə Avropada olan hər hansı bir insan o dəqiqə orda təmiz havanın, təmiz düşüncənin, söz və düşüncə sərbəstliyinin şahidi olur. Və bir də onun şahidi olur ki, orda kimliyindən asılı olmayaraq, hamı qanuna tabedir. Əgər qanunu pozursansa onun məsuliyyətini daşıyacaq və ağırlığını hiss edəcəksən.

Elə ki müstəqillik dövrünə qədəm qoyduq, Azərbaycanda da birmənalı olaraq söz, mətbuat, fikir plüralizminə "yaşıl işıq" yandırıldı. Aydındır ki, bu mühiti yaradan yeni cəmiyyət, demokratik prinsiplər və ölkənin müstəqilliyi idi. Çünki artıq Azərbaycan SSRİ-nin tərkibindən çıxmış və azad, suveren bir ölkə olmuşdur. Heydər Əliyevin xalqın istəyi ilə ikinci dəfə hakimiyyətə qayıtması Azərbaycanda demokratik prinsipləri, insan hüquqlarını və eləcə də söz, mətbuat, düşüncə azadlığını yenilədi. Bu addımın atılması dövlət başçısından çox böyük cəsarət tələb edirdi. Çünki biz birdən-birə mətbuat bolluğunu, söz azadlığını görməmişdik və bu olandan sonra hətta bir çoxları yollarını çaşdılar. Lakin buna baxmayaraq, Azərbaycan demokratik, dünyəvi və sivil dövlət olduğuna görə fikir, düşüncə azadlığı üçün heç kimə irad tutulmurdu. Heç şübhəsiz, bütün bu prinsiplərin həyata keçirilməsi ölkəmizdə sağlam mühit yaradır, insanları azad və rahat yaşamağa ruhlandırır və cəmiyyətdə çox aydın bir vəziyyət yaranırdı.

Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən bir müddət sonra dəfələrlə mətbuat nümayəndələri ilə görüşlər keçirdi. Həmin görüşlərdə qəzet təsisçiləri, redaktorlar, jurnalistlər Ulu Öndərdən bir xahiş etdilər ki, 30-a yaxın qəzetin "Azərbaycan" nəşriyyatına borcu var. Ona görə də həmin qəzetlərin bir az çapı ləngidilir, ya da müəyyən vaxt qoyulur. Ulu Öndər jurnalistlərin həmin fikirlərinə hörmətlə yanaşdı, aidiyyatı qurumlara göstəriş verdi, ictimai rəyə təsir edən tanınmış qəzetlərin nəşriyyata borcları ləğv edildi. Əgər bu borclar həmin vaxtlar ləğv edilməsəydi 30-a yaxın ictimai rəyə təsir edən və oxucular tərəfindən hörmətlə qarşılanan qəzetlərin çapı dayandırılacaqdı. Belə bir imkanın yaradılması heç şübhəsiz, redaktorlara və qəzet təsisçilərinə də bir rahatlıq gətirdi. Onlar bu addıma görə Ulu Öndərə öz təşəkkürlərini bildirdilər.

Sonrakı illərdə Azərbaycanda qəzetlərin sayı daha da artdı. Beş mindən çox qəzetin çapına icazə verildi. Aydındır ki, onların bəziləri çıxa bilməsə də əksəriyyəti nəşr edilirdi. Bununla yanaşı, çoxlu sayda saytların, özəl televiziyaların və digər informasiya vasitələrinin işıq üzü görməsi cəmiyyətdə sağlam mühit yaratdı. Və buna görə insanlar istər-istəməz dövlətə və Ulu Öndər Heydər Əliyevə minnətdar idilər.

Bütün bunlar onu göstərirdi ki, Azərbaycan demokratik yolla gedir, söz və mətbuat azadlığı, düşüncə sərbəstliyi sahəsində olan mövcud nöqsanları vaxtında aradan qaldırır. Bütün bu yeniliklər və sağlam mühit Avropa təşkilatları tərəfindən də yüksək qiymətləndirilirdi. Çünki onların nümayəndələri Azərbaycana gəlib Sovet rejimindən fərqli olaraq demokratik mühiti görür və azad mətbuatın çapının şahidi olurdular.

Prezident İlham Əliyev tərəfindən də hakimiyyətə gəldiyi ilk gündən mətbuata, söz azadlığına, fikir plüralizminə və düşüncə sərbəstliyinə sağlam mühit yaradılıb. O mühit ki insanlar sosial şəbəkələrdə, saytlarda, özəl televiziya kanallarında və çap mətbuatında hər bir Azərbaycan vətəndaşı bu yeniliyi çox asanlıqla hiss edir və onun içində olur.

Azərbaycan mətbuatının daha da inkişaf etməsi üçün prezident İlham Əliyev onlara böyük dəstək verdi. Bu dəstək həm maddi, həm də mənəvi dəstək idi. Və dəfələrlə də Azərbaycan mətbuatı prezident İlham Əliyevi "Mətbuatın dostu" mükafatına layiq görüb. Cənab Prezident də bu mükafatı çox yüksək qiymətləndirdi və çıxışlarında dedi ki, mən dostluqda çox sədaqətliyəm.

Bəli, Cənab Prezident İlham Əliyev dostluqda çox sədaqətlidir, çünki bu gün də prezident Azərbaycan mətbuatına və jurnalistlərə arxa durur, həmin qəzetlərin çap olunması və yaşaması üçün maddi dəstəyini əsirgəmir. Təbii ki, bunu biz jurnalistlər də yüksək qiymətləndirir, dövlətçiliyə, prezidentə və xalqa sədaqətini öz əməli işlərimizlə göstəririk. Yəni hər bir jurnalist ədalətli, obyektiv mövqeyi ilə vicdanlı sözə və ədalətə xidmət etməlidir.

EMİL FAİQOĞLU

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ